# Ekoloji sahibkarlıq: Davamlı gələcəyə aparan yol

**Aydan Salmanova**[1]

https://doi.org/10.5281/zenodo.7296859

**Xülasə**

Son illərdə aparılan tədqiqat və araşdırmalara nəzər salsaq sahibkarlar və tədqiqatçılar tərəfindən ətraf mühit və ekologiya ilə bağlı problemlərin əvvəlki illərlə müqayisədə üstünlük təşkil etdiyini görərik. Bunun əsas səbəblərindən biri sənayeləşmə, sürətlə artan əhali və müasir həyatın yaratdığı ekoloji problemlərin yavaş-yavaş dünyanın sonunu gətirməsidir. Ətraf mühitin çirklənməsi, təbii ehtiyatların sürətli şəkildə istehlakı və biomüxtəlifliyin tükənməsi davamlı inkişafı iflic vəziyyətinə salır. Bu gün ekoloji problemlər bütün insan fəaliyyətinə birbaşa və dolayı yoldan təsir edən mühüm amillərdən birinə çevrilib. Ətraf mühitin mühafizəsi və ətraf mühitə mənfi təsirlərin idarə edilməsi bilavasitə bütün insanların və canlıların gələcəyi ilə bağlıdır. Çünki insanlara xidmət etmək, müəssisələrin davamlılığı üçün çalışmaq və dünyaya iqtisadi töhfə vermək kimi vəzifələri həyata keçirmək yalnız təbiət mövcud olduğu müddətdə mümkündür. Buna da eko-sahibkarların sayının artırılması ilə nail olmaq mümkündür. Eko-sahibkarlar öz fəaliyyətlərində sözügedən məsələlərin hər birini nəzərə alır. Günümüzdə eko-sahibkarlar davamlı inkişaf və bir çox müəssisələrin yaranma mərhələsində, habelə ekoloji cəhətdən təmiz müəssisə kimi fəaliyyətə başlaması baxımından mühüm dəyişiklik vasitəsi kimi qəbul edilir. Qlobal miqyasda dayanıqlı şəkildə qurulmayan təşkilatlar dünyanın harasında olmasından asılı olmayaraq, sağlamlığımıza mənfi təsir göstərir, ömrümüzü qısaldır və gələcək nəsillərə qoyacağımız mirası məhv edir. Yuxarıda bəhs edilən problemlərin get-gedə daha da artması ekoloji maarifləndirməni ortaya çıxarmışdır ki, bu fərqindəlik ətraf mühiti ən böyük qlobal bazarlardan birinə çevirmişdir. Nəticədə davamlı layihələr, texnologiyaya uyğun yenilikçi və yaradıcı sahibkarlar ön plana çıxmışdır. Ətraf mühitə diqqət yetirən eko-sahibkarlıq kimi də tanınan yaşıl sahibkarlıq ekosistemdəki sahibkarların artıq yeni diqqət mərkəzinə çevrilib. Məhz elə bu məqalədə də ekoloji cəhətdən təmiz, ətraf mühitə zərər verməyən və insan sağlamlığına təhlükə yaratmayan sahibkarlıq növündən, onun əhəmiyyətindən, hərəkətverici inkişaf qüvvələrindən, dayanıqlı inkişafda rolundan, günümüzdə ekoloji sahibkarlığın üzləşdiyi maneələrindən bəhs edilir.

**Açar sözlər:** eko-sahibkarlıq, yaşıl sahibkarlıq, davamlı inkişaf

## Eco-entrepreneurship: The road to a sustainable future

**Abstract**

If we take a glance at the research and studies conducted in recent years, we will witness that environmental and ecological problems are preferred by entrepreneurs and researchers compared to previous years. One of the main reasons for this is that industrialization, a rapidly growing population, and environmental problems caused by modern life and slowly bringing

[1] Magistrant, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti, nadyasalman210@gmail.com

the world to an end. Environmental pollution, rapid consumption of natural resources, and depletion of biodiversity paralyze sustainable development. Today, environmental problems have become one of the significant factors that directly and indirectly affect all human beings and activities. Environmental protection and management of adverse environmental impacts are directly related to the future of all people and living things. Because serving people, working for the sustainability of enterprises, and making an economic contribution to the world is only possible as long as nature exists. This can be achieved by increasing the number of eco-entrepreneurs. Eco-entrepreneurs take into account each of the mentioned issues in their activities. Today, eco-entrepreneurs are seen as a crucial means of change in terms of sustainable development, and many start-up businesses as well as start-up operations as environmentally friendly enterprises. Globally, unsustainable organizations, regardless of where they are in the world, negatively affect our health, shorten our lives and destroy the legacy we leave to future generations. The ever-increasing problems mentioned above have led to environmental awareness, which has turned the environment into one of the largest global markets. As a result, sustainable projects, and technologically innovative and creative entrepreneurs came to the fore. Green entrepreneurship, also known as environmentally conscious eco-entrepreneurship, has already become the new focus of entrepreneurs in the ecosystem. This article, it is aimed to research the type of entrepreneurship that is ecologically clean, does not harm the environment, and pose a threat to human health, its importance, the driving forces of development, its role in sustainable development, and the obstacles faced by ecological entrepreneurship today.

**Keywords:** eco-entrepreneurship, green entrepreneurship, sustainable development

**Giriş**

Son illərdə planetimizdə əhali sayının artım dinamikası, iqtisadi inkişaf, yüksək demoqrafik göstəricilər, genişlənmiş ticarət əlaqələri və o cümlədən, sürətlə inkişaf edən texnoloji avadanlıqlar nəticəsində meydana çıxan yeni sənaye sahələri ətraf mühitə bir çox aspektdən zərər verir. Bu da həm ekologiyanın iqtisadi inkişafa, həm də dünya birliyinin iqtisadi fəaliyyətinin nəticələrinin təbii mühitin vəziyyətinə qarşılıqlı təsirini gözlə görüləcək dərəcədə artırır. Hazırda insanların iqtisadi fəallığının miqyasının artması nəticəsində ekosistemdə məhvedici təsirlər müşahidə olunur ki, bu da qlobal ekoloji böhranın artmasına zəmin yaradır. Ətraf mühit elementlərinin dağıdılması təsəvvür edilməz şəkildə təbii resursların çatışmazlığına və müvafiq olaraq yeni iqtisadi problemlərin yaranmasına gətirib çıxarır, həmçinin gələcək nəsillərin həyatını və inkişafını da təhlükə altına atır. Ekoloji sahədə fəaliyyət göstərən tədqiqatçıların araşdırmaları göstərir ki, qloballaşma ekoloji problemlərin sürətlə kəskinləşməsinə və genişlənməsinə kömək edir. Çünki artan iqtisadi təlabatı qarşılamaq məqsədi ilə şirkətlər ekoloji cəhətdən "təmiz olmayan" məhsullar və təhlükəli maddələr istehsal edir. Belə bir şəraitdə dünya iqtisadiyyatının inkişaf istiqamətinin ekoloji sahibkarlıq istiqamətində dəyişdirilməsinə təcili ehtiyac vardır ki, bu da iqtisadiyyatın və siyasətin bütün subyektlərinin, o cümlədən beynəlxalq ictimaiyyətin fəaliyyətində ciddi korreksiya tələb edir.

## Ekoloji sahibkarlıqdan davamlı inkişafa

XX əsrdə beynəlxalq arenada bu cür məslələrə həll yolu gətirilməsi məqsədi ilə ekoloji cəhətdən təmiz məhsulların toplandığı yeni bir bazar ideyası irəli sürülmüşdü. Bu ideya ekoloji

maarifləndirməni vurğulamaqla biznesin necə aparılacağına dair tamamilə yeni bir sahibkarlıq perspektivinin ortaya çıxmasına səbəb olmuşdu. Bu sahibkarlıq növü "ekoloji sahibkarlıq", "yaşıl sahibkarlıq" və ya "ətraf mühit sahibkarlığı" adlandırılırdı. Bu termin 1990-cı illərdən etibarən geniş şəkildə istifadə edilir. 1998-ci ildə Qven Şuyler tərəfindən qələmə alınmış "Eko-sahibkarlıq vasitəsilə iqtisadi və ekoloji problemlərin birləşdirilməsi" (Merging Economic and Environmental Concerns Through Ecopreneurship) adlı kitabda "ekoloji sahibkar" məhfumuna belə bir tərif vermişdir: Eko-sahibkarlar biznes ideyaları təkcə mənfəətlə deyil, həm də ətraf mühitə qayğı ilə bağlı olan sahibkarlardır (Schuyler, Gwyer, 1998). Ətraf mühitin mühafizəsi ilə məşğul olan sahibkarların xüsusiyyətlərinə biznes təşəbbüslərinin irəli sürülməsi, mümkün biznes imkanlarının müəyyən edilməsi və ətraf mühitə dəyən zərərin azaldılması daxildir.
Başqa bir mənbələrdə isə ekoloji sahibkarlıq ekoloji cəhətdən uyğun bazar şəraitində mövcud olan iqtisadi imkanların aşkar edilməsi, qiymətləndirilməsi və istismarı prosesi kimi müəyyən edilir (Gast, Gundolf, and Cesinger 2017). Əsas hədəfi maksimum dərəcədə qazanc əldə etməyə yönələn ənənəvi sahibkarlıqdan fərqli olaraq, davamlı və ekoloji sahibkarlıq iqtisadi, sosial və ekoloji aspektləri balanslaşdıran biznes növüdür.
Eko-sahibkarlığın fundamental məqsədi ətraf mühitin mühafizəsi, təmiz texnologiyaların yayılması, təkrar emal və cəmiyyətin bilik və məlumatlılığının dərinləşdirilməsi, ekoloji cəhətdən təmiz iqtisadiyyatın yaradılması ilə bağlı layihələrin hazırlanması və həyata keçirilməsidir. Eko-sahibkarlığın təşkilatların, habelə insanların ətraf mühitə mənfi təsirini minimuma endirməkdə mühüm rol oynaması reallığı hər kəs tərəfindən qəbul edilir. Bəs eko-sahibkarlıq buna necə nail ola bilər? Sual çətin, cavab isə olduqca bəsitdir. Hər bir təşkilat və ya şirkət öz keçmiş istehsal mühitini yüksək səviyyədə inkişaf etmiş texnika və texnoloji vəsaitlərlə təmin etməlidir. Bundan başqa müəyyən tədbirlər işlənib hazırlanmalıdır. Bunlara aşağıdakılar aiddir (Elena Mieszajkina, 2016):

- günümüzə qədər istifadə edilən texnologiyalardan fərqli olaraq daha az çirklənmə yaradan, təbii resurslardan səmərəli şəkildə istifadə edən, torpağı, suyu və havanı qoruyan, qlobal iqlim dəyişikliyinin qarşısını alan, davamlı istehsal, istehlak və logistikanı əhatə edən ekoloji texnologiyaların istifadəsi;
- ətraf mühitin deqradasiyasını artırmadan və gələcək nəsillərin resurs ehtiyaclarına xələl gətirmədən həyat keyfiyyətinin yaxşılaşdırılması;
- resurslara qənaət edən, çirklənməni və tullantıları azaldan, xammalı və enerjini qoruyan, zəhərli xammalı aradan qaldıran, emissiyaların və tullantıların miqdarının, həmçinin toksikliyini azaldılmasına kömək edən təmiz istehsal texnologiyalarının istehsalat proseduruna tətbiq edilməsi;
- yeni məhsul və xidmətlərin dizayn edilməsi;
- ətraf mühitə daha az mənfi təsir göstərən və ya resurslardan optimal istifadəyə imkan verən qeyri-texniki yeniliklərin yayğınlaşdırılması;
- ekoloji maarifləndirmə proqramlarının işlənib hazırlanması;
- ekoloji təhsilin gənclərə sevdirilməsi;

Yeni dünya nizamı ətraf mühiti dərk etmə tərzini dəyişdirəcək ekoloji təhsil təlabatını ortaya çıxarır ki, bu da təhsil islahatına və davamlı inkişafa töhfə verir. Davamlı inkişaf üçün təhsil (ESD) YUNESKO-nun təhsil sektorunun planetin üzləşdiyi təcili və dramatik çağırışlara verdiyi cavabıdır (UNESCO, 2022). Bu məqsədlə yaradılan ekoloji təhsil gənclərə uğurlu bir cəmiyyət liderləri olmağa səsləyərək, təbii ehtiyatların idarə edilməsi ilə bağlı kreativ qərarlar qəbul etmək üçün vacib olan bilik, bacarıq və təcrübə təqdim edir. Ekoloji maarifləndirmənin günü-gündən artması cəmiyyətlərin ekoloji sahibkarlara ehtiyacını artırır.

Eko-sahibkarlığın inkişafına təkan verən hərəkətverici qüvvələr ardında aşağıdakılar dayanır:
**Dünya əhalisinin sürətlə artması**: Eko-sahibkarlar resurslardan səmərəli şəkildə istifadə edərək həm əhalinin daim artan ehtiyaclarının ödənilməsinə, həm də gələcək nəsillər üçün resursların qorunub saxlanmasına görə məsul hesab edilirlər. Belə ki, onlar doğum nisbətlərinə nəzarət etməli, əhalinin qida və sığınacaq ehtiyaclarını səmərəli şəkildə ödəmək yollarını tapmalı, enerji və resurslara qənaət etməyin üsullarını müəyyən etməlidir.
**İqlim dəyişikliyi:** Bu məsələdə eko-sahibkarların üzərinə düşən külək, su və günəş enerjisi kimi alternativ enerji mənbələrinin kəşf edilməsidir.
**Resursların qeyri-bərabər paylanması:** Dünyanın bir ucunda insanlar bütün imkanlara, o cümlədən ən keyfiyyətli qida, su və daşınmaz əmlaka sahib olduğu halda, digər ucunda aclıq və səfalətdən əziyyət çəkirlər. Bu halda ekoloji sahibkarların əsas vəzifəsi hər bir canlıya bərabər münasibətin və qayğının göstərilməsidir. Məhz buna görə də eko-sahibkarlar ÜTT kimi hərəkatların fəal üzvləridir.
**Eko-səmərəlilik**: Eko-sahibkarlar məhsuldarlığı artırarkən tullantıları azaltmağın yollarını tapmalıdır ki, istehsal prosesinin tullantıları və məhsulun özü yeni xidmət məhsulunun xammalı ola bilsin. Bu səbəbdən Koka-Kola və ya P&G kimi nəhəng şirkətlər də artıq davamlı inkişaf konsepsiyasından yararlanaraq təbii resursların qorunması məqsədi ilə tullantılarını yenidən emal edərək istifadə etməyə başlayıb.
Davamlı inkişaf konsepsiyası ətraf mühit nəzəriyyəsində mühüm əlamətdir, çünki o, sadəcə olaraq ətraf mühitin mühafizəsi tədbirlərinin nə üçün qəbul edilməli olduğunu və ya onların ən yaxşı şəkildə necə həyata keçirilə biləcəyini deyil, cəmiyyətin özünün necə təşkil edilməli olduğunu göstərir.
Eko-sahibkarlığın əsasını təşkil edən eko-innovasiya və yaşıl texnologiyalar Avropa İttifaqının apardığı siyasətdə mühüm rola sahibdir. 2011-ci ilin dekabrında Avropa Komissiyası eko-sahibkarlığı gücləndirmək məqsədi ilə Eko-innovasiya Fəaliyyət Planını (EcoAP) qəbul etmişdir. Avropa İttifaqının 7-ci Ətraf Mühitin Mühafizəsi üzrə Fəaliyyət Proqramı (7EAP) 2050-ci ilə qədər "Planetin hüdudları daxilində yaxşı yaşamaq" vizyonunu, o cümlədən "Birliyi resursdan səmərəli istifadə edən, yaşıl və rəqabətədavamlı aşağı karbon iqtisadiyyatına çevirmək" zərurəti ortaya qoyur (EU, 2014). Avropa İttifaqının inkişaf siyasəti təbii kapitalın davamlı idarə olunması yolu ilə artım, iş yerləri yaradan və yoxsulluğun azaldılmasına kömək edən inklüziv yaşıl iqtisadiyyata doğru transformasiyanı təşviq edir. Bu cür tədbirlər planının ərsəyə gətirilməsi dünya dövlətlərinin davamlı inkişafa nail olmasında müsbət rol oynayır.
Davamlı inkişafa nail olmaq üçün biznes subyektləri təkcə iqtisadi aspekt əsasında fəaliyyət göstərməməli, həm qısa, həm də uzunmüddətli perspektivdə sosial və ətraf mühitə təsirləri nəzərə almalıdır. Gələcəkdə yaşıl inkişaf yeni texnologiyaların istifadəsini, təşkilatlar və proseslərin harmoniyasını, ətraf mühitin mühafizəsi üçün effektiv hökumət siyasətinin aparılmasını və KOM-ların ardıcıl bu cür fəaliyyətlərə cəlb edilməsini tələb edir. Ətraf mühitə uyğun təşəbbüslər müasir dövrdə müsbət korporativ imic və ətraf mühitin mühafizəsini təmin edən normativ aktlar üçün model yaradır. Ətraf mühitin mühafizəsi sahəsində çalışan insanlar üçün vergilərin azaldılmasına imkan verən qanunlar sayəsində daha az vergi xərcləri yaranır, o cümlədən ticarət tərəfdaşlarının əməkdaşlığının sayı artır.
Bəzi hallarda isə ətraf mühitə həssas olan sahibkarların ekoloji problemlərdən xəbərdar, lakin ekoloji bazar barəsində natamam biliyə sahib olduğunun şahidi oluruq. Adətən bu cür sahibkarlar ekoloji biznes mərkəzli imkanları həyata keçirməyə meyilidirlər və eko-səmərəliliyə doğru can atırlar. Bunlardan fərqli olaraq ekoloji bazarda həm ekoloji problemlərdən, həm də ekoloji bazardan xəbərdar olan yaşıl sahibkarlar var. Onlar yaxşı qazanc perspektivləri göstərən ekoloji mərkəzli imkanlar axtarırlar. Lakin ekoloji sahibkarların ümumi xüsusiyyətləri var. Onlar

təbii inqrediyentlərdən istifadə edərək sağlam məhsullar inkişaf etdirməyə çalışır, resursların istehlakını minimuma endirərək və ekoloji yükləri azaltmaqla sağlam istehsal proseslərini həyata keçirir, sağlam dəyərləri gənc nəsilə aşılayır. Bu üstünlüklər təkcə yeni başlayan sahibkarlar üçün yeni imkanlar yaratmır, həm də daha davamlı biznes paradiqması üçün innovativ keçid yaratmaq potensialına malikdir.
Gələcəyimiz üçün yatırım olan bu sahibkarlıq növünün inkişafında müəyyən maneələrlə də qarşılaşmaq mümkündür. Şik, Marksen və Freimann (2002) bu maneələri belə təsnif edir:

- məlumat çatışmazlığı;
- biznes məsləhətçilərinin məhdud biliklərinin olması;
- yeni başlayan sahibkarların potensial bazar haqqında məlumatlı olmaması;
- ekoloji cəhətdən təmiz müəssisələrin fəaliyyət göstərməməsi;
- davamlı müəssisələrin təşviqi üçün məhdud dövlət maliyyəsinin ayrılması.

Bu tədqiqatçılardan əlavə, Baxter (2004) həvəsləndirici faktorların və bacarıqların olmamasını və tədbirlərin həyata keçirilməsinə nəzarət və dəstəyin olmaması kimi digər maneələri də vurğulayır.
Ekoloji bazarın inkişafında durğunluq olsa da dünyanı iflic halına salan COVİD-19 pandemiyasından sonra təbiəti qoruyan məhsul və xidmətlərə maraq artıb. Çünki davamlı inkişafa əsaslanan layihə və ideyalar yaxın gələcəyin ən mühüm biznes sahələrini yaratmaq potensialına malikdir. Xüsusilə son illərdə eko-sahibkarlar sosial şüurlu yaşıl investorlardan və populyar maliyyələşdirmə platformalarından fərqli təşviq və investisiyalar alırlar. Təbii resursları tükənməyə başlayan ölkələr yaşıl sahibkarlara yol açır. Onların biznesinə dəstək vermək məqdsədi ilə bir çox yeni qaydalar tətbiq edirlər. Məsələn, Avropa İnvestisiya Bankı (AİB) yaşıl təşəbbüslərə öz xüsusi dəstəyini verməkdən çəkinmir (EIB, 2022). Ölkəmizdə də günü-gündən artan sahibkarlıq ekosisteminin inkişafı qarşıdakı dövrlərdə yaşıl sahibkarlığa yol açacaq kimi görünür.
Bu sahəyə dəstək olmaq üçün yaşıl innovasiya əsaslı startapları davamlı gələcək hədəflərinin bir hissəsi kimi nəzərdən keçirmək olduqca əhəmiyyətlidir. Həm cəmiyyətin keyfiyyətinin yaxşılaşdırılması, həm də davamlı iqtisadiyyatın yaradılması eko-sahibkarların əsas hədəfidir. Təbiəti qoruyan və ekoloji cəhətdən təmiz sahibkarlıq ideyaları ilə seçilən eko-sahibkarlar gələcəyin ümid işığı, dünyanın və gələcək nəsillərin xilaskarıdır.

**Nəticə və təkliflər**

Dünyanın davamlı inkişafına töhfə vermək təbiət, iqtisadiyyat və cəmiyyətin tarazlığı üçün vacibdir. Sahibkarlıq anlayışı ilə ekologiya anlayışının birləşməsi eko-sahibkarlığı, yəni yaşıl sahibkarlığı ortaya çıxarmışdır. Məqsəd ətraf mühiti və yaşıllığı qorumaqla yanaşı, iqtisadi cəhətdən davamlı mühit yaratmaqdır. Bir sözlə, yaşıl sahibkarlıq və ya eko-sahibkarlıq cəmiyyətin gələcək ehtiyacları üçün fayda və dəyər istehsal edən bir vasitədir. Lakin yaşıl sahibkarlar təkcə ətraf mühitin qorunması ilə maraqlanmır. Eyni zamanda, onlar iqtisadi cəhətdən dayanıqlı dünya yaratmağı qarşıya məqsəd qoyur. Onlar yaşadıqları cəmiyyətin həyat keyfiyyətini yüksəltmək üçün biznes planlar hazırlayır, ətraf mühitə olan mənfi təsiri minimuma endirməklə "davamlılıq" anlayışına vurğu edirlər. Digər sahibkarlardan fərqli olaraq, eko-sahibkarlar bazardakı imkanlardan yararlanır və sahibkarlıq səylərini davamlılıqla əlaqələndirirlər. Fəaliyyətləri arasında ekoturizm, təkrar emal, enerji səmərəliliyi, davamlı mobillik, üzvi kənd təsərrüfatı, bərpa olunan enerji kimi fəaliyyətlər yer alır. Qısaca belə deyə bilərik ki, eko-sahibkarlar davamlı gələcəyin təbliğatçısı, təbiətin isə qoruyucusudur.

**Ədəbiyyat siyahısı**

Baxter (2004). Taking First Steps in Environmental Management. ISO - Management Systems, July-August.

Elena M., (2016). Ecological Entrepreneurship and Sustainable Development. PROBLEMY EKOROZWOJU – PROBLEMS OF SUSTAINABLE DEVELOPMENT 2016, vol. 12, no 1, 163-171.

UNESCO, (2022). ESD for 2022 Global Network. https://www.unesco.org/en/education/sustainable-development/esd-net

EU, 2014. Eco-innovation at the heart of EU policies. https://ec.europa.eu/environment/ecoap/about-action-plan/objectives-methodology_en

EIB, 2022. European Investment Bank Group Sustainability Report 2022. European Investment Bank, 2022.10-35

Gast, Gundolf, and Cesinger (2017). Doing business in a green way: A systematic review of the ecological sustainability entrepreneurship literature and future research directions. Journal of Cleaner Production,12-44. https://doi.org/10.1016/j.jclepro.2017.01.065

Schuyler, Gwyer (1998). Merging Economic and Environmental Concerns Through Ecopreneurship. Ewing Marion Kauffman Foundation, Kansas City, MO. Center for Entrepreneurial Leadership.